**July 29, 2020**

1. **Provision of state support to credits of business entities in connection with the spread of the coronavirus pandemic.**

## CLIENT ALERT

### 1. Provision of state support to credits of business entities in connection with the spread of the coronavirus pandemic.

In order to reduce the negative impact of the coronavirus pandemic on the economy of the Republic of Azerbaijan, employment issues and business entities in the country, the Cabinet of Ministers of the Republic of Azerbaijan (hereinafter referred to as the "Cabinet of Ministers") has decided:

1. ***To approve the Rules for issuing a state guarantee on bank credit and subsidizing credit interest provided to business entities operating in areas affected by the coronavirus pandemic.***

In accordance with these Rules, the credits (loans) ***up to 300 (three hundred) million manats*** taken by business entities shall be guaranteed by the state and provision of such guarantee shall continue till December 31, 2021.
The State guarantee shall be formalized on the basis of Framework Guarantee Agreement concluded between the Ministry of Finance of the Republic of Azerbaijan and Entrepreneurship Development Fund of the Republic of Azerbaijan (hereinafter referred to as the "Fund").

The guarantee shall not be given in following cases:

- the purpose of the loan, which the business entity intends to obtain from an authorized credit institution, which is identified by the supervisory board of the Fund and concluded a cooperation agreement with the Fund, (hereinafter "authorized credit institutions") does not correspond with the types of economic activity of the affected areas;
- if there is a delay of a business entity for more than 60 days in accordance with the credit report (excluding the guaranteed obligations) until March 10 of this year;
- if there is a corresponding order to write off funds from the bank accounts of a business entity in accordance with the court decision, as well as in cases specified by law or provided in the agreement between the bank and the business entity;
- if the business entity is a person related to the authorized credit organization to which it applies for a guarantee;
- if the business entity is not engaged in the type of economic activity of the affected areas;
- if the state's share in the charter capital of the business entity is more than 50%;

- if there is a criminal prosecution of business entity for tax evasion;
- if the business entity is a risky taxpayer in accordance with the Tax Code of the Republic of Azerbaijan and the criteria identified by the Cabinet of Ministers;
- if the type of activity of the business entity requires registration of the entity (or object), and such object is not registered by the tax authority;
- if the activity of the business entity is suspended or is in the process of liquidation at the date of applying for the guarantee;
- in case of discrepancies between the actual activity and indicators of the business entity and its taxpayer registration data.

If the loan taken (in manat) from the credit organizations is guaranteed, the state shall provide the payment of the part of the accrued interest (hereinafter "interest subsidy") free on charge.
Off-balance sheet liabilities are neither guaranteed nor interest subsidized. The interest subsidy concerns the guaranteed loans taken in accordance with these Rules.
Interest subsidy is provided in the amount of 50% of the annual interest rate of the loan and entrepreneurs should use guaranteed and subsidized credit funds only for their intended purpose.

***Application for issuing a guarantee and interest subsidy.***

A business entity submits an application ***for issuing a guarantee and interest subsidy*** by choosing an authorized credit institution through the ***"Electronic Credit Platform"*** of the Ministry of Economy of the Republic of Azerbaijan. If the application meets the criteria indicated in these Rules, it shall be sent to the authorized credit institutions and the Fund.

The authorized credit organization shall also send the relevant documents to the Fund within 2 (two) business days and after that within 10 (ten) business days, Fund shall clarify the correspondence between the actual activity and indicators of the business entity and its taxpayer's accounting information, as well as conduct financial analysis of the submitted credit order. The authorized credit organization in turn within 10 (ten) business days shall check if the business entity meets criteria indicated in these Rules.

If the decision of the authorized credit institution and the opinion of the Fund on credit order are positive, the authorized credit institution shall apply to the Fund with the relevant documents for issuing the guarantee and interest subsidy. If the response of the Fund is positive, the guarantee letter shall be sent to the authorized credit organization, if it is negative, official information shall be sent to the credit organization and business entity. If the application of the business entity gets rejection, the business entity shall re-apply to the authorized credit organizations after elimination of the reasons of rejection.

2. ***To approve subsidizing of interest rates on the existing loan portfolio of business entities operating in the areas affected by the coronavirus pandemic***.

Subsidization of interest on loans is carried out at the expense of the Fund and the means allocated from the state budget of the Republic of Azerbaijan to the Cabinet of Ministers of the Republic of Azerbaijan.

The credit organization shall submit to the Fund a report on accrued interest for each month and application on the payment of interest subsidy within the first 3 (three) business days of the following month. The Fund transfers interest subsidies to the account of the credit organization within 3 (three) business days after receiving the application.

The interest subsidy is provided for loans received in manat (as well as restructured loans) from credit organizations by business entities, the activity of which is included in the economic activity of the affected areas as of March 10, 2020. It is also provided for loans with a residual value of 5 million manats or less as of March 10, 2020.

Interest subsidy is not provided in the following cases:

- If the loan agreement is concluded after March 10, 2020;
- If there is a delay of more than 60 days under the loan agreement to which business entity applied for a subsidy by 2020;
- If the state's share in the charter capital of the business entity is more than 50%.

In addition, interest subsidy is provided on paid or unpaid interest for a period not exceeding 12 months. If the remaining term of the loan obligation is less than 12 months, the interest subsidy is provided by the end of the loan term.

**29 iyul 2020-ci il**

1. **Koronavirus pandemiyasının yayılması ilə əlaqədar sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi.**

## MÜŞTƏRİNİN NƏZƏRİNƏ

### 1. Koronavirus pandemiyasının yayılması ilə əlaqədar sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi.

Koronavirus pandemiyasının Azərbaycan Respublikasının iqtisadiyyatına, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti (bundan sonra "Nazirlər Kabineti") qərara aldı:

***1. Koronavirus pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə veriləcək bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası təsdiq olunsun.***

Bu qaydalara əsasən, bundan sonra sahibkarlıq subyektləri tərəfindən alınacaq kreditlər ***300 (üç yüz) milyon manat*** məbləğinədək dövlət zəmanəti ilə təmin ediləcəkdir və bu zəmanətin verilməsi ***31 dekabr 2021-ci ilə*** qədər davam edəcəkdir.
Dövlət zəmanəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu ("bundan sonra "Fond" adlanacaq) arasında bağlanılan Çərçivə Zəmanəti Sazişi əsasında rəsmiləşdirilir.

Aşağıda göstərilən hallarda zəmanətlər verilməyəcəkdir:

- sahibkarlıq subyektinin Fondun Müşahidə Şurası tərəfindən müəyyən edilən və Fondla əməkdaşlıq müqaviləsi bağlayan müvəkkil kredit təşkilatından (bundan sonra "müvəkkil kredit təşkilatı" adlanacaq) almaq istədiyi kreditin təyinatı zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növlərinə uyğun deyildirsə;
- kredit hesabatına əsasən, sahibkarlıq subyektinin bu il martın 10-na qədər 60 (altmış) gündən artıq (zamin durduğu öhdəliklər istisna olmaqla) gecikməsi olduqda;
- sahibkarlıq subyektinin bank hesabları üzərində məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla sahibkarlıq subyekti arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda;
- sahibkarlıq subyekti zəmanət üçün müraciət etdiyi müvəkkil təşkilatına aidiyyəti şəxs olduqda;
- sahibkarlıq subyekti zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növü ilə məşğul olmadıqda;
- sahibkarlıq subyektinin nizamnamə kapitalında dövlətin iştirak payı 50%-dən çox olduqda;
- sahibkarlıq subyektinə münasibətdə vergiləri ödəməkdən yayınma ilə bağlı cinayət təqibi həyata keçirildikdə;
- sahibkarlıq subyekti Vergi Məcəlləsinə və Nazirlər Kabinetinin müəyyən etdiyi meyarlara əsasən riskli vergi ödəyicisi olduqda;
- sahibkarlıq subyektinin fəaliyyət növü təsərrüfat subyektinin (və ya obyektinin) uçota alınmasının tələb edildiyi halda, belə obyekt vergi

orqanında uçota alınmadıqda;

- sahibkarlıq subyektinin müraciət tarixinə fəaliyyəti dayandırılmış olduqda və (və ya) ləğvetmə prosesində olduqda;
- sahibkarlıq subyektinin faktiki fəaliyyəti və göstəriciləri ilə onun vergi ödəyicisinin uçot məlumatları arasında uyğunsuzluqlar aşkar edildikdə.

Sahibkarlıq subyektlərinin müvəkkil kredit təşkilatlarından manatla aldıqları kreditlərə zəmanət verildiyi təqdirdə, həmin kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinin ödənilməsi üçün dövlət tərəfindən əvəzsiz maliyyə vəsaiti (bundan sonra "faiz subsidiyası" adlanacaq) verilir.
Balansarxası öhdəliklərə zəmanət və faiz subsidiyası verilmir. Faiz subsidiyası bu Qaydada nəzərdə tutulan şərtlər əsasında zəmanət verilən kreditlərə şamil olunur.

Faiz subsidiyası kreditin illik faiz dərəcəsinin 50%-i həddində verilir və sahibkarlıq subyektləri zəmanət və faiz subsidiyası verilmiş kredit vəsaitlərindən yalnız təyinatına uyğun istifadə etməlidirlər.

***Zəmanət və faiz subsidiyalarının verilməsi üçün müraciət.***

Sahibkarlıq subyekti ***zəmanət və faiz subsidiyaların verilməsi üçün*** müvəkkil kredit təşkilatını seçməklə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ***"Elektron kredit platforması"*** vasitəsilə müraciət edir. Müraciət bu Qaydalarda göstərilən meyarlara uyğun olduqda müvəkkil kredit təşkilarına və Fonda yönləndirilir.

Müvəkkil kredit təşkilatı da həmçinin 2 (iki) iş günü ərzində müvafiq sənədləri Fonda göndərir və Fond 10 (on) iş günü müddətində sahibkarlıq subyektinin faktiki fəaliyyəti və göstəriciləri ilə onun vergi ödəyicisinin uçot məlumatları arasında uyğunluğu dəqiqləşdirir, habelə təqdim edilmiş kredit sifarişi üzrə maliyyə-kredit təhlili aparır. Müvəkkil kredit təşkilatı isə, öz növbəsində, müraciət daxil olduğu gündən 10 (on) iş günü müddətində sahibkarlıq subyektinin bu Qaydalarda göstərilən meyarlara uyğunluğunu yoxlayır.

Kredit sifarişi üzrə müvəkkil kredit təşkilatının qərarı və Fondun rəyi müsbət olduqda, müvəkkil kredit təşkilatı zəmanət və faiz subsidiyalarının verilməsi üçün müvafiq sənədlərlə Fonda Müraciət edir.

Fondun cavabı müsbət olduqda, müvəkkil kredit təşkilatına zəmanət məktubu, mənfi olduqda müvəkkil kredit təşkilatına və sahibkarlıq subyektinə bu barədə rəsmi məlumat göndərir. Müraciətinə imtina edilmiş sahibkarlıq subyekti imtinaya əsas olmuş hallar aradan qaldırıldıqdan sonra müvəkkil kredit təşkilatlarına yenidən müraciət edə bilər.

***2. Koronavirus pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması təsdiq olunsun.***

Kreditlər üzrə faizlərin subsidiyalaşdırılması Azərbaycan Respublikasının dövlət büdcəsindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə ayrılmış vəsait və Fondun vəsaiti hesabına həyata keçirilir.

Kredit təşkilatı hər ay üzrə hesablanmış faizlərə dair hesabatı və faiz

subsidiyasının ödənilməsi barədə müraciəti növbəti ayın ilk 3 (üç) iş günü ərzində Fonda təqdim edir. Fond isə müraciət daxil olduqdan sonra 3 (üç) iş günü müddətində faiz subsidiyalarını kredit təşkilatının hesabına köçürür..

Faiz subsidiyası fəaliyyət növü 10 mart 2020-ci tarixinə zərər çəkmiş sahələrin iqtisadi fəaliyyət növlərinə daxil olan sahibkarlıq subyektlərinin kredit təşkilatlarından həmin fəaliyyət növü üzrə manatla aldıqları kreditlərə (o cümlədən, restrukturizasiya edilmiş kreditlərə) verilir. Faiz subsidiyası 10 mart 2020-ci il tarixinə qalıq məbləği 5 milyon manat və ondan az olan kreditlərə verilir.

Aşağıdakı hallarda faiz subsidiyası verilmir:

- 10 mart 2020-ci il tarixindən sonra kredit müqaviləsi bağlandıqda;
- sahibkarlıq subektinin kredit hesabatına əsasən 10 mart 2020-ci il tarixinə subsidiya üçün müraciət etdiyi kredit müqaviləsi üzrə 60 gündən artıq gecikmə olduqda;
- sahibkarlıq subyektinin nizamnamə kapitalında dövlətin iştirak payı 50%-dən çox olduqda.

Həmçinin, faiz subsidiyası 12 aydan çox olmayan müddətə ödənilmiş və ya ödənilməmiş faizlər üzrə verilir. Əgər kredit öhdəliyinin qalan müddəti 12 aydan azdırsa, faiz subsidiyası kredit öhdəliyinin icra müddətinin sonuna qədər verilir.

****

BHM Newsletter is organized by themes about major legal processes which aim to alert businesses about significant laws, legislative changes, landmark court decisions and important information about the company.
This material should not be construed as legal advice or legal opinion.

**FOR MORE INFORMATION:**

"SKS" Plaza, 7th floor, 49 Fuzuli Str., AZ1014
T. (+994 12) 480 0088
office@bhm.az
www.bhm.az

**© BHM Law Firm LLC. All rights reserved.**